**S Ə N Ə T Ş Ü N A S L I Q**

**UOT 792.03**
**https://doi.org/10.59849/2311-8482.2025.1.188**

**ƏLİ QƏHRƏMANOV**

# ƏLVAN BİÇİMLİ ROLLARIN MAHİR İFAÇISI: XƏDİCƏ QAZIYEVA

*Məqalədə Azərbaycan Respublikasının Əməkdar artisti Xədicə xanım Qazıyevanın həyat və yaradıcılığından bəhs olunur. Onun Naxçıvan səhnəsində Azərbaycanın korifey sənətkarları, eləcə də Naxçıvan teatrının qüdrərli aktyorları ilə tamaşalarda tərəf müqabil olduqları vurğulanır. Həmçinin Xədicə xanımın Naxçıvan teatrının səhnəsində müasir və klassik Azərbaycan dramaturqlarının əsərləri ilə yanaşı dünya dramaturqlarının əsərlərinin tamaşalarında oynadığı baş rollar diqqət mərkəzinə çəkilməklə, yaratdığı çoxsaylı digər obrazlaından da söhbət açılır.*

**Açar sözlər:** *Xədicə Qazıyeva, rəqs, teatr, aktyor, tamaşa*

## Giriş

Əsrlərlə cəhalətin, nadanlığın qurbanı olan Azərbaycan qadınları üzündə rübənd, başında qara çadra, qəlbində böyük arzularla yaşamış, zülmə, haqsızlığa qarşı həmişə öz üsyankar səsini qaldırmış, azadlıq və tərəqqi uğrunda mübarizə aparmışdır. Azərbaycan torpağının hər qarışında analarımızın ruhu, hənirtisi, isti nəfəsi vardır. Azərbaycan qadını ağ saçlı analarımızın müqəddəs yolu ilə gedərək neçə-neçə nəsillər böyütmüş, dünyaya dahilər bəxş etmişlər. Bu torpaqda körpə balasına layla çala-çala dünya şöhrəti qazanan xalılar, xalçalar toxuyan, zərif barmaqları ilə rəsmlər çəkən, üçtelli sazı sinəsinə basıb, məlahətli səslə mahnılar, bayatılar qoşan analarımızın ayaq izləri vardır. Qadınlar xalqımızın çoxcəhətli mədəniyyətinin tərəqqisində də mühüm rol oynamışlar.

XIX əsrdən başlayan mədəni intibahın ilk sədası olan maarifçilik hərəkatı Azərbaycana da yayıldı. Qadınların maarifləndirilməsi, ictimai və mədəni həyatda iştiraklarının zəruriliyi bu dövrdə ən vacib problemə çevrildi. Azərbaycanın ilk maarifpərvər qadınları bu dövrdə böyük çətinliklərlə üz-üzə gəlsələr də hər cür hədə-qorxudan çəkinməyərək ictimai-mədəni məsələlərin həllində, xalqımızın maarifləndirilməsində fədakarlıqlar göstərərək xalqa nicat yolunu-maarifin işıqlı yolunu göstərdilər. Qadınlar keçmişin mənfur qalıqlarına qarşı mübarizə apara-apara oxudu, öyrəndi, respublikamızın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynadılar.

XX-ci əsrin ilk rübündə Naxçıvan teatrında bir nəfər azərbaycanlı qadın aktrisa yox idi. Tamaşalarda qadın rollarını kişilər oynayırdı. Bir əsr əvvəl tək-tük qadının teatr səhnəsində çıxış etməsi, mahnı oxuması mədəni hadisə sayılırdı. İndi Naxçıvan teatrında onlarla qadın aktyorlar, rejissorlar, rəssamlar, bəstəkarlar fəaliyyət göstərir. Görkəmli teatrşünas alim Cəfər Cəfərovun təbiri ilə desək Naxçıvan Azərbaycan teatrına bir çox sənətkarlar bəxş edib. Onlardan biri də Naxçıvan teatrının tarixinədə xüsusi rolu və yeri olan, ilk qadın aktyorlarından biri, yaratdığı rolları ilə tamaşaçılarını məftun edən, teatr fədaisi mərhum Xədicə xanım Qazıyeva idi.

## Əsas məzmun

**Həyatı və yaradıcılığının gənclik illəri.** Sözün əsl mənasında teatr fədaisi olan Xədicə Bahəddin qızı Qazıyeva 1909-cu ilin fevral ayının 15-də Tatarıstan MSSR-in Kazan şəhərində anadan olub. O, 7 yaşında ikən atası Bahəddin vəfat edir. İlk təhsilini Kazanda Tatar dilində alır. 1923-cü ildə anası ilə birlikdə Bakı şəhərinə köçür. 1925-ci ildə Bakı Hərbi Komissarlığında qulluq edən, əslən naxçıvanlı olan Həsən İsmayılovla ailə qurur. 1926-cı ildə həyat yoldaşı ilə Naxçıvana gəlir. Görkəmli maarif xadimi Səkinə Rzalının evində kirayə yaşayır. Səkinə Rzalı yaxşı ziyalı idi. Naxçıvan çəhərində keçirilən bütün tədbirlərdə iştirak edirdi. Səkinə xanım Xədicə xanımı da Naxçıvan şəhərində keçirilən bütün tədbirlərə aparırdı. Xədicə xanım yaxşı rəqs etdiyi üçün şəhərdə keçirilən bütün tədbirlərdə rəqs edirdi. O, burada rəqs etməklə xalq arasında hörmət qazanır. "Qısa müddətdə Xədicə xanımın

rəqs qabiliyyətini görən Naxçıvan teatrının direktoru Əli Xəlilov və artist Cabbar Əliyev Naxçıvan teatrında qadın aktyorlara bpyük ehtiyac olduğunu nəzərə alaraq onu teatra dəvət edir. Beləliklə Xədicə xanım teatrda fəaliyyətə başlayır" [1, s. 216 ]. Azərbaycan dilində yaxşı danışa bilməsə də ilk dəfə 1927-ci ildə gürcü dramaturqu Mcedaşvilinin "Qaçaq Kərəm" əsərində Sirab polunda oynamasını tamaşanın quruluşçu rejissoru Səməd Mövləvi ona tapşırır. Tamaşada onun Sirab rolunda Xədicə xanımın ilk çıxışı teatrın kollektivi, həm də tamaşaçılar tərəfindən müvəffəqiyyətlə qarşılanır və beləliklə onun səhnə fəaliyyəti başlayır. "Onu bu yoldan çəkindirməyə çalışan həyat yoldaşı Həsən İsmayılov heç bir nəticə əldə edə bilmədiyindən Xədicə xanımı iki qız qızıyla atıb Bakı şəhərinə qayıdır" [2, s. 250]. Seçdiyi peşənin vurğunu olan aktrisa bu çətinliyə də sinə gərir. Həqiqi səhnə aşiqi kimi teatra ğz töhfəsini verir. Xədicə xanımın ilk rolu haqqında "Şərq qapısı" qəzetində yazılır: "Mən Azərbaycan dilini yaxşı bilmirdim. Lakin rolun sözlərini tatar dilində yazıb əzbərlədim. Bu işdə mənə teatrın veteranlarından sayılan Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Rza İstəndiyarlı yaxından kömək etdi. Bu gün Azərbaycan dilində sərbəst danışmağımın da əsil səbəbkarı odur. İlk səhnə müəllimim isə tamaşaya quruluş verən Səməd Mövləvi idi. İlk rolum həm teatrın heyətinin, həm də tamaşaçıların xoşuna gəlmişdi. Odur ki, mən teatrda fəaliyyətimi davam etdirdim" [8].

20-ci illərdə Naxçıvan teatrının səhnəsində qadın aktyorlara qeyd etdiyimiz kimi böyük ehtiyac var idi. 1923-cü ildə Naxçıvan Dövlət Dram Teatrı fəaliyyətə başlayanda teatrda bir nəfər də olsun azərbaycanlı qadın işləmirdi. Yalnız 1924-cü ildə Zina Budaqova və Nadirə Rzayeva Naxçıvan teatrına işləməyə gəlmişdi. Nadirə Rzayeva az bir müddətdən sonra teatrdan ayrılır. Zina Budaqova isə teatrda işlədiyi müddətdə Gültəkin, Firəngiz ("Aydın", "Oqtay Eloğlu", C.Cabbarlı), Dezdemona, Ofelya ("Otello", "Hamlet", V.Şekspir), Xumar ("Şeyx Sənan", H.Cavid) və s. xaraktercə mürəkkəb rolları layiqincə yaradır. Xədicə xanım teatra vaxtaşırı azərbaycanlı qızların – Firuzə Əlixanova, Telli Ələkbərova, Məhbubə Məmmədova, Pakizə Məmmədova, Tamara Məmmədova, Roza Cəfərxanova və digərlərinin cəlb olunmasında mühüm təşəbbüs göstərmişdir. "Füruzə Əlixanova teatra gələndən sonra "Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib" operaları və "Arşın mal alan" operettası repertuarda möhkəm yer tutdu. O, ilk dəfə Leyli rolunda çıxış etdi. Füruzə Əlixanova sonrakı illərdə də özünü istedadlı və bacarıqlı bir aktyor kimi tanıtdı [4, s.248].

**Azərbaycanın korifey sənətkarları ilə tamaşalarda tərəfmüqabil**. Xədicə xanım teatrda fəaliyyət göstərdiyi illərdə müxtəlif rejissorların – Səməd Mövləvi, Həsən Səfərli, Sidqi Ruhulla, Həsən Ağayev, Yusif Yulduz, İbrahim Həmzəyev, İsa Musayev, Səftər Turabov, Ələsgər Şərifov, Baxşı Qələndərli, Vəli Babayevin quruluş verdiyi Azərbaycan dramaturqlarının əsərləri ilə yanaşı dünya dramaturqlarının əsərlərinin tamaşalarında bir-biribdən dolğun obraz yaradıb [5, s. 70].

Xədicə xanım Naxçıvan teatrının səhnəsində müxtəlif vaxtlarda dəfələrlə Azərbaycanın korifey sənətkarları – A.M.Şərifzadə, Mərziyə xanım, İsmayıl Dağıstanlı, Möhsün Sənani, Kazım Ziya, Naxçıvan teatrının qüdrərli aktyorları – Səməd Mövləvi, İbrahim Həmzəyev, Əyyub Haqverdiyev, İsa Musayev, Zəroş Həmzəyeva və digərləri ilə vaxtaşırı tamaşalarda tərəfmüqabil olmuşdur [5, s. 71]. Xədicə xanım Naxçıvan teatrında "Sevil"də Gülüş, Edilya, "Almaz"da Almaz, Yaxşı, "Şeyx Sənan"da Xumar rollarını oynayarkən Abbas Mirzə Şərifzadə ilə tərəfmüqabil olmuşdur. O, böyük sənətkar Abbas Mirzə Şərifzadə ilə tərəf müqabil çıxış etdiyi vaxtı (1929) ömrünün ən gözəl çağı hesab edirdi. Ömrünü teatra, səhnəyə həsr edən sənətkarın tamaşalarda yaratdığı baş rollar: Gültəkin, Yaqut, Firəngiz, Gülzar, Solmaz, Almaz, Sevil, Dilbər-Edilya, Gülüş, Gülnisə ("Aydın", "Oqtay Eloğlu", "Yaşar", "Od gəlini", "Almaz", "Sevil", "Solğun çiçəklər", C.Cabbarlı), Rübabə, Xumar, Ana ("Səyavuş", "Şeyx Sənan", "Ana", H.Cavid), Gertruda, Dezdemona ("Hamlet", "Otello", V.Şekspir), Həyat ("Həyat", M.İbrahimov), Sirin, Xuraman ("Fərhad və Şirin", "Vaqif", S.Vurğun), Pəri ("Pəri cadu", Ə.Haqverdiyev), Nərgiz ("Nərgiz", M.Seyidzadə), Şirin və Məleykə ("Xosrov və Şirin", Q.Qurbanov) xüsusi yer tutur.

Müasir və klassik Azərbaycan dramaturqlarının əsərlərində oynadığı rollar: Nina ("Şeyx Sənan", H.Cavid), Çimnaz, Güllü xala ("Qaçaq Nəbi", S.Rüstəm), Kəblə Fatmanisə, Zivər xanım ("Ölülər", "Anamın kitabı", C.Məmmədquluzadə), Maze ("İlan yuvasında fırtina", Ə.Qəmbərov), Solmaz, Yaqut, Böyükxanım, Gülnisə, Sevər və Firəngiz, Almaz və Fatmanisə, Edilya, Sevil və Gülüş, Mariya Timofeyevna və Nabat ("Od gəlini", "Yaşar", "Aydın", "Solğun çiçəklər", "Oqtay Eloğlu", "Almaz",

"Sevil", "1905-ci ildə", C.Cabbarlı), Qönçə ("Kef içində", B.Talıblı), Yelena Mixayılovna ("Sahil əməliyyatı", C.Əmirov), Ana ("Sehirli yaylıq", K.Həsənov), Lalə ("Vüqarlı gözəl", H.Elsevər), Mariya Aleksandrovna ("Mən onu axtarıram", S.Rəşdi), Küp qarısı (Ə.Səmədov), Varya ("İntiqam", Z.Xəlil), İncəgül qarı ("Qanlı çinar", F.Aşurov), Xalisə nənə və Yasəmən, Pərican və Gövhər xanım ("Eşq və intiqam", "Laçın yuvası", S.S.Axundov), Zinyət ("Çiçəklənən arzular", Ə.Yusifov), Bəlx hökmdarı ("Məshəti", K.Ağayeva), Afaq ("Nizami", M.Hüseyn), Qəmər ("Günəş doğur", Ə.Abbasquliyev), Dayə və Lyuba, Salatın ("Xeyir və Şər", "Ana ürəyi", İ.Səfərli), Qızxanım ("Məzəlizadələr", S.Axundov), Qərənfil ("Babək", O.Sarıvəlli), Miss Qreta ("Od içində", Ə.Məmmədxanlı), Həkim, Hürrü ("Həyat", "Məhəbbət", M.İbrahimov), Şamama cadu, Səlimə ("Pəri cadu", Ə.Haqverdiyev), Əntiqə "Ayrım" Q.Qurbanov), Bahar ("Bahar", M.Təhmasib), Qarınca ("Bir gəncin manifesti", M.Cəlal), Gövhər və Padşahın arvadı, Zəhra, Sona, Gültəkin ("Məlik Məmməd", "Bahar nəğməsi", "Aqil və Sərvinaz", "Azad", Ə.Abbasov), İntizar ("Vəfa", R,Rza), İfritə ("Vətən", A.Şaiq), Reyhan, Ballı xala ("Atayevlər ailəsi", "Bahar suları", İ.Əfəndiyev), Sənəm xala ("Vicdan əzabı", Ə.Yusifli), Şəfqət bacısı ("Polad", N.Nağıyev), Sona, Ziba xanlm ("Hacı Qara", "Lənkəran xanının vəziri", M.F.Axundov), Məryəm, Tükəzban ("Fərhad və Şirin", "Vaqif", S.Vurğun), Gülnisə ("Qohumlar", H.Quliyev), Şirindostu və Güllər ("Şərqin qalası", Q.Musayev), Nənə ("Bahar qız", R.Heydər), Anna İvanovna ("Düşmənlər cəbhəsində", N.Gəncəli).

**Musiqili əsərlərin tamaşalarında oynadığı rollar:** Leylinin anası və Məsnunun anası, Minnət xanım və Kəlbə Qubadın arvadı, Asya ("Leyli və Məcnun", "Ər və arvad", "Arşın mal alan", Ü.Hacıbəyov), Mələk xanım ("Əlli yaşında cavan", Z.Hacıbəyov), Kamilə, Nazilə, Qəmər, Laçın ("Toy", "Aydınlıq", "Nişanlı qız", "Xoşbəxtlər" S.Rəhman), Xanım ("Toy kimindir?", M.Əlizadə və A.Məşədibəyov), Səlimə ("Özümüz bilərik", Ş.Qurbanov və S.Ələsgərov), Mülayim ("Qaynana", M.Şamxalov), Tərlan ("Ürəkçalanlar", M.S.Ordubadi və F.Əmirov), Lətifə ("İldırım", C.Məcnunbəyov).

**Xarici dramaturqların əsərlərinin tamaşalarında oynadığı rollar:** Dezdemona və Emilya, Kraliça ("Otello", "Hamlet", V.Şekspir), Madam de Sotanvil ("Jorj Danden", J.B.Molyer), Vera ("İki qardaş", M.Lermontov), Fiokla ("Evlənmə", N.Qoqol), Nastasiya Alyoxina ("Altı sevgili dost", A.Arbuzov), Lyubov Yarovaya və Panova ("Düşmənlər", K.Trenyov), Qəmər xanım ("Tələbələrin kələyi", yaxud "Çarlenin xalası", B.Tomas), Xatın ("Böyük toy", A.Payev), Varlı qadın ("Kor padşah", N.Hikmət və V.Tulyakova), Sirab ("Qaçaq Kərəm", V.Mcedaşvili), Tsu Yuy ("Dağıdılmış piyalə", Van Şi Fu), Sona ("Kərpic adam", Q.Bes), Maşa Kirşon ("Küləklər şəhəri", Kirşon (Nuri Nuriyevin tərcüməsində), Aqlaya İvanovna ("Xərçənglər", S.Mixalkov), Enni Krosbi ("İkinci cəbhə", V.Sobko), Varya, Maşa ("Vətən oğlu", "Praqanın şabalıd ağacları altında", K.Simonov), Zmeraldina ("İki ağanın bir nökəri", K.Qoldoni), Teodora ("Sevilya ulduzu", L.Veqa*),* Şpanik ("Namus", A.Şirvanzadə), Manya və Raya ("Özgə uşağı", V.Şkvarkin), Karatina, Qalçixa və Yefrosinya ("Günahsız müqəssirlər", A.Ostrovski), Bersenyeva ("Hücum", B.Lavrenyovun), Natella ("Vətən namusu", G.Mdivani).Dövlət Mükafatı laureatı, professor Rza Təhmasib, görkəmli səhnə ustadı Hüseyn Sarabski Xədicə xanımın yaratdığı obrazları yüksək qiymətləndirirdilər. Teatr mütəxəssisləri isə mətbu orqanlarda onun yaratdığı obrazlar haqqında öz fikirlərini bildirirdilər. İdris və Səlim adlı iki müxbir C.Cabbarlının "Yaşar" əsərinin tamaşasına (1934) rəy yazmışılar. Orada deyilir: "Yaqut rolunu ifa edən artist Xədicə xanım öz rolunun mahiyyətini yaxşı anlamışdır. O, gələcəyə böyük ümid bəslədiyini hiss edir".Naxçıvan teatrında M.F.Axundovun "Hacı Qara" pyesi tamaşaya qoyularkən "Şərq qapısı" qəzeti 5 mart 1938-ci il tarixli nömrəsinin bir səhifəsini həmin tamaşaya həsr etmişdi. Xədicə xanım Sona rolunu necə oynayacağı barədə yazmışdı "Bu əsərdə mənə Sona rolunu olduğu kimi yaratmaq vəzifəsi tapşırılmışdı. Bu obrazı yaratmaq igidlik və cəsurluq tələb edir. Sona xanım Heydər bəyi həqiqi və əxlaqi surətdə sevir. Ona görə də onun qaçaqlığa-quldurluğa getməməsinə çalışır və onu öz əməyi ilə yaşamasını məsləhət görür. Mən bu obrazı bütün varlığımla yaratmalıyam və öz dövründə qaçaq və quldurlarla mübarizə edən bir Sona kimi oynayacağam" [6]. "Şərq qapısı" qəzetində Qurban Qurbanov yazırdı: "Sona rolunu ifa edən aktrisa Xədicə xanım obrazı anlatdığı kimi də yaratdı" [71].Xədicə xanım hansı obrazı yaradırsa yaratdığı obrazın daxili aləminə məxsus cizgilər tapmaq onun yaradıcılığı üçün səciyyəvi haldır. B.lavrenyevin "Hücum" əsərinin tamaşasında (1967-

ci il noyabr ayının 7-də) Xədicə Qazıyeva Kapitan Bersenyevin arvadı rolunda çıxış edir. O, yaratdığı obrazı ilə sənhədə öz ərinə və uşaqlarına yüksək qayğı göstərən, əmin-amanlıq istəyən bir ana kimi təsir bağışlayırdı [1, s. 218-219].

Teatr fədaisi Xədicə xanım Azərbaycan qızlarını teatra cəlb etməklə kifayətlənmirdi. O, öz doğma qızı Sofyanı, nəvələri Rəfail və Rövşəni də teatra cəlb edir. Onlar da talelərini teatra bağlayırlar. Sofya həyatını Naxçıvan teatrına bağlayır. Teatrda çoxsaylı tamaşalarda müxtəlif səpkili rollar yaradır. 1982-ci ildə Azərbaycan Respublikasının Xalq artisti adına layiq görülür. 1999-cu ildə "Şöhrət" ordeni ilə təltif olunur. 2002-ci ildə Prezident təqaüdü verilir. Nəvəsi Rəfail uzun illər Azərbaycan Dövlət Akademik Dram Teatrında fəaliyyət göstərir. Burada səciyyə və xaraktercə əlvan rollar oynayır. O,Azərbaycan Dövlət Televiziyasında hazırlanmış çoxlu tamaşalada iştirak edir. Ona yaxın filmlərə çəkilib. 2006-cı ildə Respublikanın Xalq artisti fəxri adına layiq görülür. Rövşən Naxçıvan Dövlət Musiqili Dram Teatrında 1968-ci ildən bir aktyor kimi fəaliyyət göstərir. Teatrda çoxsaylı xarakterik rolların mahir sənətkarı kimi tanınır. Həmçinin bir çox əsərlərə rejissorluq etmişdir. O, 2006-cı ildə Prezident mükafatçısı olmuş, 2008-ci ildə Azərbaycan Respublikanın Xalq artisti fəxri adına layiq görülür və hazırda Naxçıvan Dövlət Milli Dram Teatrında fəaliyyətini davam etdirir.

Xədicə xanım fəal ictimaiyyətçi idi. O, Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edirdi. Azərbaycan qadınlarının öz çadralarını atmasında onun da fəaliyyəti az deyildi. Belə ki, 1938-ci ilin mart ayının 8-də Beynəlxalq Qadınlar Günü münasibətilə Naxçıvan teatrının səhnəsində Səməd Mövləvinin quruluşunda tamaşaya qoyulan Cəfər Cabbarlının "Sevil" pyesində Xədicə Qazıyeva Sevil obrazını canlandırır. Onun oynadığı Sevil obrazı yüzlərlə qadının taleyini çox inandırıcı şəkildə əks etdirdiyi üçün tamaşaçılarda dərin həyəcan oyadır. Tamaşa "köhnə" həyatın məhvi, "yeni" həyatın təntənəsi kimi səslənir. Üçüncü pərdədə Sevil – Xədicə Qazıyeva çadrasını Balşın üzünə çırpdığı zaman zalda böyük bir həyəcan yaranır. Tamaşadakı qadınlar da "Məhv olsun çadra!" deyərək çadralarını səhnəyə atırlar. Bu hadisə Haxçıvanın ictimai-siyasi həyatında çox böyük gurultu qoparır. Bunun sədası bir neçə gün ərzində bütün respublikaya yayılır. Xədicə xanım həmçinin Böyük Vətən Müharibəsinin iştirakçısı da olmuşdur. Teatrda çalışmaqla yanaşı, 1930-1940-cı illərdə məktəblərdə şagirdlərə xor və rəqs sənətinin srlərini öyrətmişdir.

**Nəticə**

Məhz onun bu müsbər keyfiyyətləri dövlərin diqqət mərkəzində olmuşdur. O, görə dəfələrlə Yerli sovetlərə deputat seçilmişdir. O, 1958-1960-cı illərdə Azərbaycan Ali Sovetinin fəxri fərmanları ilə, bir sıra orden və medallarla təltif olunmuşdur..Teatr fədaisi Xədicə xanım Qazıyeva 1945-ci ildə Naxçıvan MSSR, 1964-cü ildə Azərbaycan SSR Əməkdar artisti fəxri adlarına layiq görülmüşdür. Xədicə xanım Qazıyeva 1991-ci il iyun ayının 7-də 82 yaşında Naxçıvan şəhərində əbədiyyətə qovuşur. Görkəmli sənətkar yaratdığı əlvan biçimli rollarıyla bu gün də sənətsevərlərin qəlbində yaşayır. Ruhu şad olsun.

## ƏDƏBİYYAT

1.Qəhrəmanov Ə. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı. Bakı: "Min bir mahnı" nəşriyyatı, 2004, 416 s.
2.Naxçıvan teatrı. Məqalələr, xatirələr. Naxçıvan: "Əcəmi" NPB, 2014, 296 s.
3.Naxçıvan teatrının salnaməsi. Naxçıvan: "Əcəmi" NPB, 2010, 736 s.
4.Səhnədən keçən yollar. Mövləvi S. Naxçıvan teatrında. Bakı: "Yazıçı" nəşriyyatı, 1983, 290 s.
5.Vəzirov C. Eyvazlı H. Naxçıvan teatrı dünən, bu gün. Naxçıvan: "Məktəb" nəşriyyatı, 2007, 206 s.
6."Şərq qapısı" qəzeti, 1938, 5 mart.
7."Şərq qapısı" qəzeti 1938, 16 mart.
8."Şərq qapısı" qəzeti, 1969, 14 fevral.

***AMEA Naxçıvan Bölməsi***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***
***E-mail: aliqehreman@yahoo.com***

**Ali Gahramanov**

**SKILL PERFORMER OF ALVAN FORMED ROLES: KHADIJA GAZIYEVA**

The article talks aboyd the life and creat ivity of the Honored Artist of the Republic of Azerbaijan Khadija Gaziyeva. It is enphasized that on the stage of Nakhchivan, he appeared in performances with famous artists of Azerbaijan, as well as powerful actors of Nakhchivan theater. Also, Khadija khanum's many other characters created by the main roles she played in the plays of world dramatists along with the works of modern and classical Azerbaijani dramatists on the stage of Nakhchivan theater are discussed.

**Keywords:** *Khadija Gaziyeva, dance, theater, actor, performance.*

**Али Гахраманов**

**МАЛОВЕРНАЯ ИСРОЛНИЦА АЛВАНСКИХ РОЛЕЙ: ХАДИДЖА ГАЗИЕВА**

В статье рассказывается о жизни и творчестве заслуженной артистки Азербайджанской Республики Хадиджа Газиевой. Подчеркивается, что на сцене Нахчывана он выступал в спектаклях с известными артистами Азербайджана, а также с мощными актерами Нахчыванского театра. Также обсуждаются многие другие образы Хадиджа ханум, созданные по главным ролям, сыгранным ею в пьесах мировых драматургов, а также произведениям современных и классических Азербайджанских драматургов на сцене Нахчыванского театра.

**Ключевые слова:** *Хадиджа Газиева, танец, театр, актер, спектакль*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 10.02.2025**
**Son daxilolma tarixi:15.03.2025**